**FATMA ƏSƏDOVA**
**Bakı Slavayn Universiteti**
**fatma@mail.ru**
**Bakı ş., S.Rüstəm 33**

# AZƏRBAYCAN DİLİ İBTİDAİ SİNİFLƏRDƏ ƏSAS TƏLİM FƏNNİ KİMİ

Dünya ölkələrində ana dilinin öyrənilməsi milli təfəkkürün formalaşdırılmasında mühüm vasitə kimi yüksək dəyərlərdəndir. Hər xalqın, hər millətin dili onun ana dili adlanır. Çünki bu dil dünyaya gəldiyi ilk gündən insanın canına, beyninə və ürəyinə ana südü, ana laylası ilə daxil olur. Ona görə də təsadüfi deyil ki, uşaqların dil açarkən ilk sözü ana sözüdür.

Təhsilin ümumi inkişaf səviyyəsini müəyyənləşdirmək üçün keçirilən beynəlxalq və milli qiymətləndirmələrdə ana dili üzrə standartların mənimsənilməsinə xüsusi diqqət yetirilir. Bütün bunlar isə bir fənnin şəxsiyyətin formalaşmasındakı müstəsna rolu ilə bağlıdır. Məqalədə Azərbaycan dilinin ibtidai siniflərdə təlim fənlərinin əsası oldugu yazılır. Doğrudan da, şagirdlər ana dilinə yiyələnmədən, onun incəliklərinə bələd olmadan digər fənlər üzrə proqram materiallarını müvəffəqiyyətlə mənimsəyə bilməzlər. Hər bir tədris fənni praktik şəkildə startı ana dili fənnindən götürür. Şagirdlərdə nitq mədəniyyətinin formalaşdırılmasında Ana dili fənni aparıcı yer tutur. Məqalədə H.Əliyevin, K.D.Uşinskinin, F.Köçərlinin və b. ana dili haqqında söylədikləri fikirlər də öz yerini tapmışdır. Dil hər bir millətin milliliyinin əsasıdır. Ona görə də hər bir gənc öz ana dili Azərbaycan dilini, müasir Azərbaycan dilini ən incəliklərinə qədər bilsin və bu dildən istifadə etsin. Biz müstəqil Azərbaycanda Azərbaycan dilini - dövlət dilini dövlət dili etdiyimiz kimi, cəmiyyətimizdə də, xalqımızın içində də Azərbaycan dilini mütləq hakim dil etməliyik.

**Açar sözlər**: Azərbaycan dili, milli kurikulum,təhsil prosesi,əsas təlim fənni, inteqrasiya

Hər xalqın, hər millətin dili onun ana dili adlanır. Çünki bu dil dünyaya gəldiyi ilk gündən insanın canına, beyninə və ürəyinə ana südü, ana laylası ilə daxil olur. Ona görə də təsadüfi deyil ki, uşaqların dil açarkən ilk sözü ana sözüdür. Ana dili həm də vətənin rəmzidir. Azərbaycan dilinin çoxəsirlik tarixi var. Ozan-aşıqlar ədəbiyyatımızın möhtəşəm abidələri “Kitabi-Dədə Qorqud”, ”Koroğlu” eposlarını bu dildə qoşmuş, Həsənoğlu, Nəsimi, Şah İsmayıl Xətai, Füzuli, Vidadi, M.F.Axundov, Sabir, S.Vurğun, Şəhriyar kimi qüdrətli sənətkarlar dünya xəzinəsinə töhvə olan söz incilərini bu dildə yaratmışlar.

Azərbaycan dili hələ Şah İsmayıl Xətai dövründə dövlət dili, diplomatik yazışma və hərbi təlim dili kimi işlənmişdir. O, ta qədimdən Şərq ölkələrində geniş yayılmışdır. Rus şairi M.Y.Lermontov Avropada fransız dili kimi, Asiyada da Azərbaycan dilini bilməyin zəruri olduğunu qeyd etmişdir.

1929-cu ildə Azərbaycanda latın qrafikalı əlifba tətbiq edildi. Qısa müddət ərzində latın qrafikasının ışlədilməsi Azərbaycanda geniş kütlələr arasında savadsızlığın ləğvi üçün olduqca əlverişli zəmin yaratdı.Bütün bu nailiyyətlərə baxmayaraq həmin əlifba 1940-cı il yanvarın 1-dən kiril yazısı əsasında tərtib edilmiş yeni qrafikalı əlifba ilə əvəz olundu. Yarım əsrdən çox bir müddət ərzində kiril qrafikası ilə Azərbaycan elmi və mədəniyyətinin qiymətli nümunələri yaradıldı. Lakin kiril qrafikasının dilimizin səs quruluşuna uyğun gəlməməsi Azərbaycan ziyalılarını bu əlifbanın təkmilləşdirilməsi yolunda mütəmadi iş aparmağa sövq etdi...

Müstəqilliyimizin qazanılmasından sonra yaranmış tarixi şərait xalqımızın dünya xalqlarının ümumi yazı sisteminə qoşulması üçün yeni perspektivlər açdı və latın qrafikalı Azərbaycan əlifbasının bərpasını zəruri etdi(1).Ümummilli liderimiz Heydər Əliyevin bu fərmanı(“Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin Fərmanı (9 avqust 2001-ci il)) ilə avqust ayının biri Azərbaycan əlifbası günü kimi təsis edilmişdir.

Dil hər bir millətin milliliyinin əsasıdır. Ona görə də hər bir gənc öz ana dili Azərbaycan dilini, müasir Azərbaycan dilini ən incəliklərinə qədər bilsin və bu dildən istifadə etsin. Biz müstəqil Azərbaycanda Azərbaycan dilini - dövlət dilini dövlət dili etdiyimiz kimi, cəmiyyətimizdə də, xalqımızın içində də Azərbaycan dilini mütləq hakim dil etməliyik (Heydər Əliyev).

Azərbaycan Respublikası bu gün bütün sahələrdə iri addımlarla irəliləyir. Bu təhsil sahəsində də özünü göstərməkdədir. Təhsil haqqında Azərbaycan Respublikasının Qanununda qeyd edilir ki, Azərbaycan Respublikasında təhsil sahəsindəki inkişaf insan hüquqları haqqında beynəlxalq konversiyalara və Azərbaycan Respublikasının tərəfdar çıxdığı digər beynəlxalq müqavilələrə əsaslanır, təhsil sahəsində milli-mənəvi və ümumbəşəri dəyərlərin prioritetliyi əsasında dünya təhsil sisteminə inteqrasiya olunaraq gedir. Təhsil sisteminin yenidən qurulması qabaqcıl ölkələrin təhsil sisteminə inteqrasiya olunmasına zəmin yaratmışdır.

Dünya ölkələrində ana dilinin öyrənilməsi milli təfəkkürün formalaşdırılmasında mühüm vasitə kimi yüksək dəyərlərdəndir. Təhsilin ümumi inkişaf səviyyəsini müəyyənləşdirmək üçün keçirilən beynəlxalq və milli qiymətləndirmələrdə ana dili üzrə standartların mənimsənilməsinə xüsusi diqqət yetirilir. Bütün bunlar isə bir fənnin şəxsiyyətin formalaşmasındakı müstəsna rolu ilə bağlıdır. Məqalədə Azərbaycan dilinin ibtidai siniflərdə təlim fənlərinin əsası oldugu yazılır. Doğrudan da, şagirdlər ana dilinə yiyələnmədən, onun incəliklərinə bələd olmadan digər fənlər üzrə proqram materiallarını müvəffəqiyyətlə mənimsəyə bilməzlər. Hər bir tədris fənni praktik şəkildə startı ana dili fənnindən götürür. Şagirdlərdə nitq mədəniyyətinin formalaşdırılmasında Ana dili fənni aparıcı yer tutur. Məqalədə H.Əliyevin, K.D.Uşinskinin, F.Köçərlinin və b. ana dili haqqında söylədikləri fikirlər də öz yerini tapmışdır.

Azərbaycan Respublikasının əsas təlim fənni olan Azərbaycan dilinin daim inkişaf etdirilməsi, bu dilə məhəbbət hissinin aşılanması məhz ibtidai siniflərin üzərinə düşür. Ana dili ibtidai siniflərdə başlıca fənn hesab edilir. Ana dili dərslərində şagirdlər oxuyub-yazmağı öyrənir, dilimizin qrammatik quruluşu haqqında bilik alır, gələcək tılim prosesində zəruri olan oxu və orfoqrafik qaydalara, yazılı və şifahi nitq vərdişlərinə yiyələnirlər.Məktəb, şagirdləri ana dili sahəsində elə silahlandırmalıdır ki, onlar ölkəmizin ictimai həyatında fəal iştirak edə bilsinlər.

Uşağın əşya və hadisələri düzgün anlaması, onlar haqqında öz fikrini düzgün, aydın, dəqiq, səlis, məntiqli, təmiz ifadə etməsi üçün ana dilini bilməsi zəruridir. Nitqin formalaşdığı bir dövrdə ana dilini heç nə əvəz edə bilməz.

K.D.Uşinski ana dilinin əhəmiyyətindən izah edərək yazmışdır: ”Uşaq ana dilini öyrənərkən yalnız şərti səsləri öyrənmir, o, eyni zamanda ana dilinin doğma döşündən mənəvi həyat və qüvvət içir. Ana dili, təbiəti ona heç bir təbiətçinin izah edə bilmədiyi bir şəkildə izah edir; o, uşağı onu əhatə edən adamların xarakteri ilə, içərisində yaşadığı cəmiyyətlə, onun tarixi ilə, onun istəkləri ilə heç bir tarixçinin tanış edə bilməyəcəyi bir tərzdə tanış edir, o, uşağı xalq etiqadlarına, xalq poeziyasına heç bir bədiiyatçının edə bilməyəcəyi bir tərzdə daxil edir; nəhayət, o elə məntiqi anlayışlar və fəlsəfi görüşlər verir ki, əlbəttə, bunu heç bir filosof uşağa verə bilməz”.(1)

Görkəmli ədəbiyyatşünas tənqidçi Firidun bəy Köçərli dilimiz haqqinda öz fikrini bildirmişdir:"Ana dili millətin mənəvi diriliyidir...Ananın südü bədənin mayəsi olduğu kimi, ana dili də ruhun qidasıdır"(4).

Xalq yazıçısı M.İbrahimov da Azərbaycan dilini yüksək qiymətləndirmişdir:

"Dilimiz ən yüksək romantikanın, ən təsirli realizmin dilidir.Bu dil qanadlı xəyalları,coşğun ehtirasları dərin ifadə edə bilir...Bu dil gözəldir, cazibədardır,şeirlə, musiqi ilə doludur"(2).

Milli Kurikulum sənədində qeyd edilir ki, Azərbaycan dili təliminin məqsədi ümumi nitq və dil bacarıqlarını formalaşdırmaqla, şagirdlərin nitq mədəniyyətinə yiyələnmələrini təmin etməkdən ibarətdir. Buna görə də: nitq və dil bacarıqlarına yiyələnməklə ümumi nitq inkişafına nail olmaq; Azərbaycan dilinin düşünmə, öyrənmə və danışma vasitəsi olmasını dərk etmək; davamlı təhsil prosesində, praktik fəaliyyətdə istifadə üçün potensial bilik və bacarıqlara yiyələnmək vacib hesab edilir.

"Azərbaycan dili" fənni şagirdlərin söz ehtiyatını yeni sözlər və ifadələrlə zənginləşdirir, ən zəruri qrammatik qaydaların,ədəbi tələffüz normalarının öyrənilib tətbiq olunmasını, nitq bacarıqlarını, nitqini məntiqi surətdə qurmağı, ardıcıl və rabitəli düşünməyi vərdiş etdirir.Beləliklə, şagird ana dili vasitəsilə hafizəsini, düşünmə qabiliyyətini inkişaf etdirir və onda həm təxəyyül, həm də idrak bacarığı tərbiyələnir. Şagirdə bilik verməklə, onların şüurunu bədii obrazlarla zənginləşdirməklə müəllimlər onlarda əsl azərbaycanlıya xas olan əxlaqi sifətlər də tərbiyələndirirlər.

Azərbaycan dili ibtidai siniflərdə təlim fənlərinin əsasıdır. Şagirdlər ana dilinə yiyələnmədən başqa fənlər üzrə proqram materiallarını müvəffəqiyyətlə mənimsəyə bilməzlər. Xarakter etibarilə ana dili inteqrativ fəndir. Ana dili bütün başqa fənləri mənimsəməkdə mühüm və əvəzedilməz rola malikdir. Şagird onu əhatə edən mühit və əşyanı ana dilinin köməyi ilə dərk edir. Ana dili təlimi öz ilk mərhələsində bütün digər fənləri əvəz edir.

Hər bir tədris fənni:tarix, coğrafiya, fizika, kimya, biologiya və digərləri praktik şəkildə başlanğıcı ana dili fənnindən götürür. Şagirdlərdə nitq mədəniyyətinin formalaşdırılmasında Ana dili fənni aparıcı mövqe tutur. Ana dili fənninin 4 məz-mun xətti var: dinləyib – anlama və danışma, oxu, yazı , dil qaydaları.Hər bir məzmun xətti üçün ayrı-ayrı məzmun standartları müəyyən olunmuşdur. Dərslikdə verilən materiallar bu məzmun xətlərini əhatə edir.

Artıq on bir ildir ki, ibtidai siniflər üçün fənn kurikulumu əsasında "Azərbaycan dili" dərsliyi hazırlanmış və şagirdlər bu dərsliklər əsasında məşğul olurlar. "Azərbaycan dili" dərsliyi birinci sinifdə savad təliminin başlanğıcı və əsasıdır. Savad təlimi dövründə uşaq ilkin oxu və yazı texnikasına yiyələnir, ilkin oxu və yazı vərdişləri əldə edir.Ana dili tədrisində savad təlimi çox mühüm mərhələdir. Beləki, şagird bu dövrdə ana dilini öyrənmək üçün lazım olan bütün əsasları mənimsəməlidir. Oxu təliminin əsasını möhkəm qoymaq üçün əlifba təliminə hazırlıq dövründə fonetik təhlilə geniş yer vermək lazımdır. Bu dövrdə şagirdlər sait və samit haqqında ilk anlayışlara yiyələnirlər.

Hər xalqın, hər millətin dili onun ana dili adlanır. Çünki bu dil dünyaya gəldiyi ilk gündən insanın canına, beyninə və ürəyinə ana südü, ana laylası ilə daxil olur. Ona görə də təsadüfi deyil ki, uşaqların dil açarkən ilk sözü ana sözüdür. Ana dili həm də vətənin rəmzidir. Azərbaycan dilinin çoxəsirlik tarixi var. Ozan-aşıqlar ədəbiyyatımızın möhtəşəm abidələri "Kitabi-Dədə Qorqud", "Koroğlu" eposlarını bu dildə qoşmuş, Həsənoğlu, Nəsimi, Şah İsmayıl Xətai, Füzuli, Vidadi, M.F.Axundov, Sabir, S.Vurğun, Şəhriyar kimi qüdrətli sənətkarlar dünya xəzinəsinə töhvə olan söz incilərini bu dildə yaratmışlar.

Dünya ölkələrində ana dilinin öyrənilməsi milli təfəkkürün formalaşdırılmasında mühüm vasitə kimi yüksək dəyərlərdəndir. Təhsilin ümumi inkişaf səviyyəsini müəyyənləşdirmək üçün

keçirilən beynəlxalq və milli qiymətləndirmələrdə ana dili üzrə standartların mənimsənilməsinə xüsusi diqqət yetirilir. Bütün bunlar isə bir fənnin şəxsiyyətin formalaşmasındakı müstəsna rolu ilə bağlıdır. Məqalədə Azərbaycan dilinin ibtidai siniflərdə təlim fənlərinin əsası oldugu yazılır. Doğrudan da, şagirdlər ana dilinə yiyələnmədən, onun incəliklərinə bələd olmadan digər fənlər üzrə proqram materiallarını müvəffəqiyyətlə mənimsəyə bilməzlər. Hər bir tədris fənni praktik şəkildə startı ana dili fənnindən götürür. Şagirdlərdə nitq mədəniyyətinin formalaşdırılmasında Ana dili fənni aparıcı yer tutur. Məqalədə H.Əliyevin, K.D.Uşinskinin, F.Köçərlinin və b. ana dili haqqında söylədikləri fikirlər də öz yerini tapmışdır.

Azərbaycan dili hələ Şah İsmayıl Xətai dövründə dövlət dili, diplomatik yazışma və hərbi təlim dili kimi işlənmişdir. O, ta qədimdən Şərq ölkələrində geniş yayılmışdır. Rus şairi M.Y.Lermontov Avropada fransız dili kimi, Asiyada da Azərbaycan dilini bilməyin zəruri olduğunu qeyd etmişdir.

Savad təliminin ilk günündən oxu və yazı təlimi paralel aparılır. İlk olaraq ünsiyyət qurulur və kommunikativ nitq qabiliyyətinin inkişafı, fikirlərinin dərk edilməsi üçün şərait yaradılır. Ünsiyyət nəticəsində birincilər ilk dəfə dil həqiqətlərini söz, cümlə və mətn vasitəsilə anlamağa daşlayırlar. Söz məktəbyaşlı uşaqların nitqinə,lüğət ehtiyatına eşitdiyi və tələffüz edildiyi şəkildə təsir edir, uşaq onu əhatə edən ictimai mühitdə eşitdiyi sözləritəhlil etmədən olduğu kimi qavrayır və ifadə edir. Məhz buna görə də uşağın düzgün nitqə yiyələnməsi üçün onu əhatə edən hər kəs düzgün və ədəbi dildə danışmalarına xüsusi diqqət yetirməlidirlər.Azərbaycan dilinə yaxşı yiyələnmək uşaqların müvəffəqiyyətlə təhsil almasına kömək edir.

Milli Kurikulum sənədində qeyd edilir ki, Azərbaycan dili təliminin məqsədi ümumi nitq və dil bacarıqlarını formalaşdırmaqla, şagirdlərin nitq mədəniyyətinə yiyələnmələrini təmin etməkdən ibarətdir. Buna görə də: nitq və dil bacarıqlarına yiyələnməklə ümumi nitq inkişafına nail olmaq; Azərbaycan dilinin düşünmə, öyrənmə və danışma vasitəsi olmasını dərk etmək; davamlı təhsil prosesində, praktik fəaliyyətdə istifadə üçün potensial bilik və bacarıqlara yiyələnmək vacib hesab edilir.

Fəal-interaktiv təlimdən istifadə etməklə keçilən dil dərsləri biliyin şüurlu şəkildə qazanılmasına imkan yaradır. Müəllim klaster, anlayışın çıxarılması üsullarının birindən istifadə etməklə motivasiya yaradır, şagirdlər mövzunu tapır, keçiləcək mövzuda nədən söhbət gedəcəyinə dair ilkin ehtimallarını söyləyir, sonra fasilitator(müəllim) həmin ehtimalları əldə rəhbər tutaraq şagirdlərə qrup tapşırıqları verir. Dərsin digər mərhələlərində də fəal-interaktiv təlimin üsullarından istifadə etməklə keçilən mövzunu dərindən mənimsəyirlər.Azərbaycan dili dərslərində fəal-interaktiv təlimin tətbiqi şagirdlərdə müstəqillik, fəallıq,özünəgüvən, özünütənqid, yoldaşlarına hörmət, təmkinlilik, yoldaşlıq, dostluq, əməkdaşlıq, dinləmə mədəniyyəti və s. tərbiyə olunmasına imkan yaradır.

İbtidai təhsilin sonunda ana dili vasitəsilə şagirdlərin nitqi fəallaşır, bu dil şagirdlərə malik olduqları lüğət ehtiyatından rabitəli nitqdə sərbəst istifadə etmək bacarığını aşılayır, onlar öz fikirlərini şifahi və yazılı şəkildə istifadə edir, başqalarının dediklərini dərk edir, mənimsədiklərini isə başqalarına anlatmağı bacarırlar.

## Ədəbiyyat

1. “Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin Fərmanı(9 avqust 2001-ci il)
2. Azərbaycan Respublikasında Ümumu Təhsilin Konsepsiyası (Milli Kurikulumu).”Azərbaycan müəllimi” qəz., 2006,1 dekabr

3. Abdullayev A.S. Orta məktəbdə Azərbaycan dilinin tədrisi metodikası. B., Maarif, 1978
4. Balıyev H, Balıyev A. Azərbaycan dilinin tədrisi metodikası. B., Qismət, 2014.
5. Kərimov Y. İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası. B., Səba, 2013.
6. Köçərli F.Ana dili. Seçilmiş əsərləri, Azərnəşr, Bakş, 1948, s.292
7. İbrahimov M. Azərbaycan dili. Azərbaycan EA –nın nəşri, Bakı, 1957, s.21
8. Uşinski K.D., Seçilmiş pedaqoji əsərləri, Bakı, Azərnəşr, 1953, s.113

.

**F.Asadova**

## The Azerbaijani language as the main teaching subject in elementary classes

### Summary

The language of every nation, every nation is called its mother tongue. Since the first day of the language comes into the human heart, brain and heart, it comes with breast milk, mother-of-pearl. Indeed, pupils can not succeed in mastering other subjects without mastering their mother tongue or their subtleties. Each teaching subject is practically taken from the mother tongue. Native language takes the lead in forming speech culture in students. So it is not accidental that the first word of the children is the main word when opening the language. Study of mother tongue in world countries is of high value as an important tool in shaping national thinking. Particular attention is paid to mastering the native language standards in international and national assessments to determine the overall level of development of education. All of these are related to the exceptional role of one subject in the formation of personality. The article states that Azerbaijani is the basis of teaching subjects in elementary classes. Indeed, pupils can not succeed in mastering other subjects without mastering their mother tongue or their subtleties. Each teaching subject is practically taken from the mother tongue. Native language takes the lead in forming speech culture in students. The article includes articles by H.Aliyev, K.D.Ushinsky, F.Kocharli and others. their thoughts on their mother tongue have also been found.

Language is the basis of every nation's nationality. Therefore, every young person should know the native language of Azerbaijan and the modern Azerbaijani language to the most subtle and used language. We must make Azerbaijani language an independent language both in our society and in our people, as we do the state language as an official language in independent Azerbaijan.

**Keywords:** Azerbaijani language, national curriculum, educational process, main teaching subject, integration

**А.Асадова**

**Азербайджанский язык в начальных классах как основной предмет обучения**

**Резюме**

Данная статья посвящена обучению азербайджанского языка в начальных классах. Основное место при формировании речевого этикета у учащихся занимает родной язык. Автор учитывает проблемы, связанные с обучением родного языка, рассматривает всевозможные способы обучению его, дает множество вариантов как подсказку в обучении родного языка. Каждый предмет обучения практически берет начало с родного языка. На примере фактического материала дается схема обучение родного языка. Каждый предмет обучения практически берет начало с родного языка. Основное место при формировании речевого этикета у учащихся занимает родной язык. Язык каждого народа, каждой нации называется родным языком. Потому что этот язык с материнским молоком, с ее колыбельной проникает в душу, в мозг и в сердце человека с первого дня его рождения. Поэтому не случайно первое слово ребенка – мама. В статье упоминается, что азербайджанский язык является основным предметом обучения в начальных классах. Учащиеся не смогут успешно усвоить программные материалы и по другим предметам, не владея азербайджанским языком. Каждый предмет обучения практически берет начало с родного языка. Основное место при формировании речевого этикета у учащихся занимает родной язык. В статье заняли свои места высказывания о родном языке Г.Алиева, К. Д. Ушинского, Ф. Кочерли и др.

Каждый язык есть основа нации. И поэтому каждый человек должен знать свой родной язык, в данном случае азербайджанский язык и должен его использовать.

**Ключевые слова:** азербайджанский язык, национальный курикулум, образовательный процесс обучения, интеграция

Redaksiyaya daxil olma tarixi: 21.06.2019
Çapa qəbul olunma tarixi: 26.07.2019
Filologiya üzrə fəlsəfə doktoru, dosent Sevil Hümmətova tərəfindən çapa tövsiyə olunmuşdur